# “Azəristiliktəchizat”
# Açıq Səhmdar Cəmiyyəti

31 dekabr 2024-cü il tarixinə
Konsolidə edilmiş Maliyyə Hesabatları və
Müstəqil Auditorun Hesabatı

SR AUDIT & TAX SERVICES
ASSURABLE SOLUTIONS

"SR Audit Solutions" MMC
Caspian Sport Plaza, B bloku, 1405-ci ofis,
Heydər Əliyev pr., 115, Bakı şəhəri info@sraudit.com

# MÜSTƏQİL AUDİTORUN RƏYİ

## "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin Rəhbərliyinə:

***Şərti müsbət Rəy***

Biz "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) 31 dekabr 2024-cü il tarixinə təqdim edilən konsolidə olunmuş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə konsolidə olunmuş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, konsolidə olunmuş kapitalda dəyişikliklər və konsolidə olunmuş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsas paraqrafında təsvir olunmuş məsələ istisna olmaqla əlavə edilmiş maliyyə hesabatları "Cəmiyyət"in 31 dekabr 2024-cü il tarixinə olan konsolidə olunmuş maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə konsolidə olunmuş maliyyə nəticələrini və konsolidə olunmuş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Şərti müsbət Rəy üçün Əsas***

Biz, 03 aprel 2025-ci il tarixində Cəmiyyətin kənar auditoru təyin edilməyimiz səbəbindən Cəmiyyətdə 31 dekabr 2024-cü il tarixinə mal-material ehtiyatlarının fiziki sayılması prosesini müşahidə etməmişik. Bu səbəbdən Maliyyə hesabatlarının tərkibində 31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə müvafiq olaraq, 5,054,653 AZN və 4,017,324 AZN dəyərində göstərilmiş mal-material qalıqları üzrə maliyyə məlumatlarının tamlığı ilə bağlı rəy bildirə bilmirik. Bu məsələnin əlavə olunmuş Maliyyə hesabatlarına təsiri nüfuzedici deyildir. Bizim rəyimiz yuxarıda qeyd edilən məsələ ilə bağlı şərtlənir.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik.

***İzahedici Paraqraf – Müqayisəli məlumatlar***

Biz maliyyə hesabatlarının 25 saylı qeydində verilmiş 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə müqayisəli məlumatların yenidən təqdim olunmasına diqqət çəkirik.

Cəmiyyətin 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları başqa müstəqil auditor tərəfindən yoxlanılmış və şərti müsbət rəy ifadə edilmişdir.

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə apardığımız maliyyə hesabatlarının auditi çərçivəsində biz 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarında əks olunan müqayisəli məlumatların yenidən təqdim olunması üçün tətbiq edilən 25 saylı qeyddə təsvir edilən düzəlişləri yoxladıq. Biz 25 saylı qeyddə təsvir edilən düzəlişlər istisna olmaqla, 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarına digər prosedurlar tətbiq etməmişik. Bizim fikrimizcə 25 saylı qeyddə göstərilən düzəlişlər audit yoxlamasının nəticələrinə uyğundur və düzgün tətbiq edilmişdir. Bu məsələ ilə bağlı bizim audit rəyimiz dəyişdirilməmiş rəydir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

***Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz audit edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və müsbət rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud mənfəət və ya zərər və digər məcmu gəlirlər olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski, xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**"SR Audit Solutions" MMC-nin Direktoru,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü,**
**Auditor:** **Vəlizadə Səftər Vəli oğlu**

*Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 28. 12. 2022-ci il tarixdə verilmiş İCAZƏ№ SA/381*

21 oktyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il (Yenidən bəyan olunmuş) |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər | 7 | 129,079,082 | 130,979,715 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **129,079,082** | **130,979,715** |
| **Qısa müddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 8 | 5,054,653 | 4,017,324 |
| Ticarət və digər debitor borcları | 9 | 3,206,586 | 3,027,704 |
| Digər aktivlər | 10 | 4,172,923 | 4,611,314 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 7,851,319 | 4,201,785 |
| **Cəmi qısamüddətli aktivlər** | | **20,285,481** | **15,858,127** |
| **Cəmi aktivlər** | | **149,364,563** | **146,837,842** |
| **Öhdəliklər və kapital** | | | |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Borc öhdəlikləri | 12 | 15,510,420 | 19,995,630 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **15,510,420** | **19,995,630** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Borc öhdəlikləri | 12 | 28,238,930 | 23,554,250 |
| Ticarət və digər kreditor borcları | 13 | 40,428,593 | 34,634,301 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **68,667,523** | **58,188,551** |
| **Cəmi öhdəliklər** | | **84,177,943** | **78,184,181** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 14 | 136,684,980 | 136,684,980 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 15 | 61,536,054 | 58,218,329 |
| Yığılmış zərər | | (133,034,414) | (126,249,648) |
| **Cəmi kapital** | | **65,186,620** | **68,653,661** |
| **Cəmi öhdəliklər və kapital** | | **149,364,563** | **146,837,842** |

18 avqust 2025-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

İlham Mirzəliyev
**Sədr**

Gülnarə Kərimova
**Baş Mühasib**

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il | 31 dekabr 2023-cü il (Yenidən bəyan olunmuş) |
|---|---|---|---|
| Kommersiya fəaliyyətindən əldə edilən gəlir | 16 | 16,962,415 | 14,784,084 |
| Satışların maya dəyəri | 17 | (57,566,141) | (56,429,998) |
| **Cəmi əsas fəaliyyətdən zərər** | | **(40,603,726)** | **(41,645,914)** |
| Dövlət tərəfindən ayrılmış subsidiyalar | 18 | 39,411,280 | 36,529,924 |
| Digər gəlirlər | | 160,923 | 1,307,657 |
| İnzibati xərclər | 19 | (3,664,206) | (5,062,818) |
| Ticarət debitor borcları üzrə ehtiyat ayırmaları | | (1,799,225) | (1,739,753) |
| Debitor borcu üzrə silinmələr | | (90,341) | |
| **Əməliyyat zərəri** | | **(6,585,295)** | **10,610,904** |
| Maliyyə xərcləri | 12 | (199,470) | (232,079) |
| **Mənfəət vergisindən əvvəlki zərər** | | **(6,784,765)** | **(10,842,983)** |
| **İl üzrə zərər** | | **(6,784,765)** | **(10,842,983)** |
| **İl üzrə cəmi ümumi zərər** | | **(6,784,765)** | **(10,842,983)** |

18 avqust 2025-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

İlham Mirzəliyev
**Sədr**

Gülnarə Kərimova
**Baş Mühasib**

| | Nizamnamə kapitalı | Yığılmış zərər | Dövlət tərəfindən kapital qoyuluşları | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə** | **136,684,980** | **(115,406,665)** | **55,609,208** | **76,887,523** |
| İl üzrə cəmi ümumi zərər (yenidən təqdim edilmiş) | - | (10,842,983) | - | (10,842,983) |
| Kapital qoyuluşu | - | - | 2,609,121 | 2,609,121 |
| **31 dekabr 2023-cü il tarixinə** (yenidən təqdim edilmiş) | **136,684,980** | **(126,249,648)** | **58,218,329** | **68,653,661** |
| İl üzrə cəmi ümumi zərər | - | (6,784,765) | | (6,784,765) |
| Kapital qoyuluşu | - | | 3,317,725 | 3,317,725 |
| **31 dekabr 2024-cü il tarixinə** | **136,684,980** | **(133,034,414)** | **61,536,054** | **65,186,620** |

18 avqust 2025-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

İlham Mirzəliyev
**Sədr**

Gülnarə Kərimova
**Baş Mühasib**

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il | 31 dekabr 2023-cü il tarixinə yrnidən təqdim edilmiş |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axını** | | | |
| Mənfəət vergisindən əvvəl zərər | | (6,784,765) | (10,842,983) |
| Amortizasiya və köhnəlmə | 7 | 6,221,965 | 8,200,531 |
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin silinməsi | 7 | - | - |
| Ticarət debitor borclar üzrə ehtiyat ayırmaları | | - | - |
| Maliyyə xərcləri | 12 | 199,470 | 232,079 |
| **Əməliyyatlardan yaranan pul vəsaitləri** | | **(363,330)** | **(2,410,373)** |
| **Əməliyyat aktivlərində (artma)/azalma:** | | | |
| Mal-material ehtiyyatları | 8 | (1,037,329) | (513,630) |
| Ticarət və digər debitorlar | 9 | (178,882) | 7,566,247 |
| Digər aktivlər | 10 | 438,390 | (3,371,392) |
| **Əməliyyat öhdəliklərində artma/(azalma):** | | | |
| Ticarət və digər kreditor borclar | 13 | 5,794,292 | 10,064,525 |
| **Əməliyyat fəaliyyətindən əldə edilən pul axınları** | | **4,653,141** | **11,335,377** |
| Digər | | | (7,128,545) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul axınları** | | **4,653,141** | **4,206,832** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi | 7 | (4,321,332) | (8,163,877) |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | | **(4,321,332)** | **(8,163,877)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Dövlət tərəfindən kapital qoyuluşları ilə bağlı daxilolmalar | 15 | 3,317,725 | 2,609,121 |
| **Maliyyə fəaliyyətindən əldə edilən xalis pul axınları** | | **3,317,725** | **2,609,121** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **3,649,534** | **(1,347,924)** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 11 | 4,201,785 | 5,549,709 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 11 | **7,851,319** | **4,201,785** |

18 avqust 2025-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və imzalanmışdır.

İlham Mirzəliyev
**Sədr**

Gülnarə Kərimova
**Baş Mühasib**